"TƏSDİQ EDİRƏM"
Sumqayıt Dövlət Universitetinin
rektoru ____________ dos R.E.Əzizov
"04" aprel 2024-cü il

SUMQAYIT DÖVLƏT
UNİVERSİTETİ

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

SDU-nun Elmi Şurasının 04.04 2024-cü il tarixli
iclasının (protokol № 06) qərarı
ilə təsdiq edilib.

SUMQAYIT 2024

# MÜNDƏRİCAT

**GİRİŞ** ..... 2
**1.1 Məqsəd** ..... 2
**1.2. Əhatə dairəsi** ..... 2
**1.3 Vizyonumuz:** ..... 2
**1.5 Missiyamız:** ..... 2
**1.6. Dəyərlərimiz:** ..... 2
**2. SDU-DA KEYFİYYƏT TƏMİNATI SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ** ..... 3
**2.1. İDARƏETMƏ** ..... 3
**2.2.TƏLİM- TƏDRİS** ..... 3
**2.2.1.Təhsil proqramlarının/ kurikulumların tərtibi və təsdiqi** ..... 3
**2.2.2. Təhsilalan mərkəzli təhsil, tədris və qiymətləndirmə** ..... 4
**2.2.3.Tələbələrin qəbulu, inkişafı və diplomların tanınması** ..... 4
**2.2.4. Tələbə dəstək xidmətləri:** ..... 5
**3. ELM VƏ TƏDQİQAT** ..... 6
**4. BEYNƏMİLƏLLƏŞMƏ** ..... 6
**5. RESURSLARIN İDARƏ OLUNMASI** ..... 6
**5.1. Maddi resursların idarə olunması** ..... 6
**5.1.1. İnformasiyanın idarə olunması (ictimaiyyəti məlumatlandırma)** ..... 6
**5.1.2 Digər maddi resursların idarə olunması** ..... 7
**5.2. İnsan resurslarının idarə olunması** ..... 7
**6. MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ** ..... 7

# GİRİŞ

SDU-nun Keyfiyyət təminatı siyasəti "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a (ESG standarlatları), dövlətin bu sahədəki digər müvafiq sənədlərinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarına əsaslanır.

## 1.1 Məqsəd

SDU-nun keyfiyyət təminatı siyasəti universitetin strateji inkişaf planına-missiyası, vizyonu, məqsədi və hədəflərinə uyğun olaraq akademik və inzibati fəaliyyətlərdə keyfiyyətin təmin olunması məsələlərinə yönəlmişdir. Bu mənada siyasət sənədinin məqsədi SDU-nun akademik və inzibati fəaliyyətlərinin ( təlim-tədris, idarəetmə, infrastruktur, elmi-tədqiqat, ictimai xidmət kimi sahələrdə və s.) müvafiq sahələr üzrə müəyyənləşdirilmiş keyfiyyət meyarlarına cavab verməsini təmin etməkdir**.**

## 1.2. Əhatə dairəsi

SDU-nun keyfiyyət siyasəti struktur bölmələrin (fakültə, şöbələrin və s.) keyfiyyət təminatı ilə əlaqəli bütün tətbiqlərini (fəaliyyətlərini) əhatə edir. Bu fəaliyyətlərə şöbələrin inzibati funksiyaları ilə yanaşı fənn proqramları, təlim-tədris prosesi, tədqiqat-inkişaf fəaliyyəti, ictimai xidmət, tələbələrə dəstək xidmətləri və s. kimi fəaliyyətlər daxildir. Siyasət qeyd olunan fəaliyyətlərlə əlaqəli olan universitet üzvləri ilə yanaşı xarici maraqlı tərəfləri əhatə edir.

## 1.3 Vizyonumuz:

*Sənaye və texnologiyanın inteqrasiyasını təmin edərək təhsil və tədqiqat yolu ilə sosial problemlərə innovativ həll yolları gətirən yüksək reputasiyaya sahib aparıcı bir universitetə çevrilməkdir.*

## 1.5 Missiyamız:

*Multidisiplinar bir yanaşma ilə sənaye, texnologiya və sosial inkişafa töhfə verəcək mütəxəssislər hazırlamaqdır.*

## 1.6. Dəyərlərimiz:

- ***Ədalətlilik-*** Universitetimiz bütün fərdlərə bərabər imkanlar təmin etmək, ayrı-seçkiliyin bütün formalarını rədd etmək, ədalətli təhsil və iş mühiti təmin etmək prinsipini qəbul edir.
- ***Şəffaflıq***-Qərarların qəbulu prosesində açıqlıq və hesabatlılıq prinsiplərinə əməl edilir. Akademik və inzibati təyinatlarda və ya yüksəlişlərdə bilik və təcrübə əsas götürülməklə imkanlar təqdim edilir.
- ***Tələbə mərkəzlilik***-Universitetdə idarəetmə və təlim-tədris prosesində təhsilalan mərkəzli təhsil yanaşması mənimsənilir.
- ***Bərabərlik, müxtəliflik və inklüzivlik***- Universitetimizdə bərabərliyi, müxtəlifliyi və inklüzivliyi təşviq etməklə hamı üçün ədalətli və dəstəkləyici öyrənmə və iş mühiti təmin etmək hədəflənir.
- ***Akademik dürüstlük-*** Universitetimizdə akademik dürüstlük ön plana çəkilərək təhsilalanların və təhsilverənlərin etik davranışları təşviq edilir və dəstəklənir.
- ***Etik dəyərlərə sadiqlik***-Universitet üzvləri öhdəliklərində olan fəaliyyətləri icra edərkən təşkilati, ölkədaxili və qlobal səviyyədə qəbul edilmiş ümumi etik dəyər və prinsiplərə qarşı həssaslıq göstərir.

❖ ***Dayanıqlılıq-*** Universitetimiz bütün fəaliyyətlərində dayanıqlılıq prinsiplərinə riayət etməklə ekoloji tarazlığı qoruyub saxlamaq və cəmiyyətə daimi fayda təmin etmək öhdəliyi götürür.

## 2. SDU-DA KEYFİYYƏT TƏMİNATI SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

SDU-nun keyfiyyət təminatı siyasətinin əsas istiqamətləri universitetin strateji inkişaf istiqamətləri və ali təhsildə daxili və xarici keyfiyyət təminatı standartları (ESG, Akkreditasiya meyarları və s.) nəzərə alınaraq müəyyənləşdirilmişdir. SDU-nun keyfiyyət təminatı siyasəti Planlaşdırma, icra (tətbiq) etmə, nəzarət etmə və tədbir görmə (düzəliş etmə) (PDCA/PDSA)- Plan, Do, Study, Act) prosedurlarına əsaslanır:




Bu prosedurların tətbiq edildiyi əsas sahələr aşağıdakılardır:

### 2.1. İDARƏETMƏ

Keyfiyyətin idarə olunması, siyasət və prosedurların davamlı inkişafını, tətbiq edilməsi və izlənməsini, akademik və inzibati strukturların, göstərilən xidmətlərin keyfiyyətinin inkişaf etdirilməsini hədəfləyir. SDU-da keyfiyyət təminatında nəzərə alınan prinsiplər universitetin daxilindəki və xaricindəki maraqlı tərəflərin iştirakı ilə davamlı olaraq təkmilləşdirilir. SDU-nun hər bir üzvünün keyfiyyət təminatı ilə bağlı proseslərdə rolunun olması ilə yanaşı əsas fəaliyyətlər universitet daxilindəki müxtəlif komissiyalar, işçi qrupları, struktur bölmələr və s. tərəfindən həyata keçirilir. SDU-da idarəetmədə səmərəliliyi təmin etmək üçün fəaliyyətlərdən məsul şəxs(lər) və ya struktur bölmə(lər) arasında məsuliyyət bölgüsü aparılır, resursların məqsədəuyğun şəkildə istifadəsi planlaşdırılır, tətbiq oluna bilən monitorinq və hesabatlılıq sistemi yaradılır.

### 2.2.TƏLİM- TƏDRİS

Sumqayıt Dövlət Universiteti təhsilalan mərkəzli təlim-tədris yanaşmasını mənimsəyərək, təhsilalanların öyrənmələrini dəstəkləmək üçün ehtiyac duyulan resursları və təhsil proqramlarının uyğunluğunu təmin etməklə sənaye, texnologiya və sosial inkişafa töhfə verəcək yaradıcı, yenilikçi və təşəbbüskar məzunlar hazırlamağı təminat altına alır. Təlim-tədris başlığı altında aşağıdakı sahələrdən bəhs etmək mümkündür.

#### 2.2.1.Tədris proqramlarının/ kurikulumların tərtibi və təsdiqi

SDU-da tədris (fənn) proqramlarının tərtibi və təsdiqinə dair prosedurlar mövcuddur. Tədris (fənn) proqramı hazırlanarkən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş Təhsil Proqramı və SDU-nun Elmi Şurasının qərarı ilə müvafiq ixtisas üzrə təsdiqlənmiş Tədris Planı əsas götürülür. Tədris edilən fənlər, onların məzmunu tərtib və təsdiq edilərkən daxili və xarici maraqlı tərəflərin rəyləri öyrənilir. Fənn proqramları hazırlanarkən təhsilalanın ixtisas sahəsi, cəmiyyətin və əmək bazarının tələbləri nəzərə alınır. Özündə fənnin tədrisi üçün

ayrılan dərs saatlarını, keçiriləcək mövzuları, fənn üzrə təlim nəticələrini, qiymətləndirmə məsələlərini və s. ehtiva edən sillabuslar isə kafedra iclaslarında müzakirə edilir və müvafiq kafedranın müdiri tərəfindən təsdiqlənir.

### 2.2.2. Təhsilalan mərkəzli təhsil, tədris və qiymətləndirmə

SDU-da həyata keçirilən təlim-tədris və qiymətləndirmə fəaliyyətlərində təhsilalan mərkəzli yanaşma mənimsənilir. Təhsilalanlara təqdim edilən təhsil xidmətləri ilə onların yaradıcı, təşəbbüskar, tənqidi düşünmə bacarığı olan şəxsiyyət, sahəsi üzrə lazımi bilik və bacarıqlara sahib mütəxəssis kimi yetişdirilməsinə çalışılır. Auditoriya daxilində təhsilalan və təhsilverənlərin qarşılıqlı əlaqəsi və təhsilalanların fəallığı diqqət mərkəzində saxlanılır. Bundan əlavə, SDU-da innovativ tədrisin təmin edilməsi məqsədilə təhsilalanların öz sahələri üzrə qabaqcıl təşkilatlarla tanış olmaları üçün də şərait yaradılır. Beləliklə, həm sənaye-universitet əməkdaşlığının təlim-tədris prosesinə inteqrasiyası təmin olunur həm də təhsilalanlara gələcək karyeralarını inkişaf etdirmələri (iş imkanları və s.) baxımından imkanlar yaradılır.

Qiymətləndirmə-SDU-da təhsilalanların fərdi (əqli, emoisonal və s.) xüsusiyyətlərinin və keçirilən fənlərin xarakteristikasının müxtəlifliyi nəzərə alınaraq tədris prosesində müxtəlif qiymətləndirmə üsul və formalarından (fərdi tapşırıqlar, qrup işləri, yazılı, açıq tipli məntiqi situativ tapşırıqlar, şifahi və s.) istifadə olunur.

### 2.2.3.Tələbələrin qəbulu, inkişafı və diplomların tanınması

SDU-da tələbələrin qəbulu və inkişafı, həmçinin diplomlarının tanınmasına dair müəyyən prosedurlar mövcuddur. SDU ali təhsilin üç səviyyəsi (Bakalavriat, magistratura və doktorantura) üzrə təhsil xidməti təqdim edir.

- **Bakalavriat səviyyəsi.** Tələbələrin universitetə qəbulu Dövlət İmtahan Mərkəzinin (DİM) təqdim etdiyi plan yerlərinə və sözügedən qurumun təşkil etdiyi imtahan nəticələrinə əsasən aparılır. Universitetdə DİM tərəfindən keçirilən imtahan nəticələri və təhsilalanların əvvəlki təhsilləri (təsdiqedici sənədləri nəzərə alınmaqla) tanınır. SDU-da köçürülən, bərpa olunan, II ali təhsil alan, təcrübə mübadiləsində iştirak edən tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması ilə bağlı fakültələr üzrə ekvivalentlik (fənlərin uyğunlaşdırılması) komissiyaları formalaşdırılmış və bununla bağlı mexanizm mövcuddur. Mexanizmə görə ekvivalentlik komissiyası tələbələrin əvvəlki təhsil müəssisəsindən gətirdiyi rəsmi sənədlər (diploma əlavə, akademik transkript, qiymət cədvəli və s) əsasında fənlərin uyğunlaşdırılmasını həyata keçirir.
  SDU təhsillərini uğurla başa vuran tələbələrə diplomla yanaşı və onların müvafiq təhsil səviyyəsinə uyğun olaraq qazandıqları bilik və bacarıqları əks etdirən diploma əlavənin verilməsini təmin edir.
  Xarici tələbələrin qəbulu iki formada- DİM imtahanı və portal.edu.az sistemi üzərindən mərkəziləşmiş qaydada həyata keçirilir. Sistem üzərindən müraciət edən tələbələrin qəbulu SDU-da "Əcnəbi tələbələrin qəbulu qaydaları"–na əsasən həyata keçirilir. SDU müraciətləri dəyərləndirərkən qaydalara uyğun namizədləri qəbul etmə, əks halda isə imtina cavabı vermə haqqına sahibdir.
  Mübadilə proqramları vasitəsilə xarici universitetlərə göndərilən və ya qəbul edilən tələbələrin kreditlərinin tanınması SDU-nun "Tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınmasına" dair qaydalar ilə tənzimlənir.
- **Magistratura səviyyəsi.** Bu səviyyəyə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan və həyata keçirilən imtahan nəticələrinə və plan yerlərinə əsasən "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə Ali və Orta İxtisas Təhsili Alt Sistemi" (AOİTAS) üzərindən aparılır. Magistratura təhsil səviyyəsinə xarici tələbələrin qəbulu portal.edu.az sistemi üzərindən mərkəziləşmiş qaydada həyata keçirilir. Sistem üzərindən

müraciət edən tələbələrin qəbulu SDU-da “Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları”–na əsasən həyata keçirilir. SDU-da magistr hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş magistr ixtisaslaşmalarının (proqramlarının) təsnifatına uyğun olaraq mütəxəssis hazırlığının həyata keçirilməsini təmin edir. Magistratura proqramlarından məzun olmaq üçün tədris olunan fənlərdə uğur əldə etməklə yanaşı təhsilalanların magistr dissertasiyasını ərsəyə gətirməsi və müdafiə etməsi tələb olunur. Universitetdə magistratura səviyyəsində təhsil alan tələbələrin ümumi işlərinə rəhbərlik “Magistratura, doktorantura və elm şöbəsi” tərəfindən həyata keçirilir. Magistraturada təhsil Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmişdir Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi qaydaları ilə tənzimlənir.

- **Doktorantura səviyyəsinə qəbul:** Bu səviyyəyə qəbul mərhələlərlə “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə Ali və Orta İxtisas Təhsili Alt Sistemi” (AOİTAS) üzərindən həyata keçirilən imtahan nəticələri əsasında aparılır. Hər hansı xarici ölkədə bakalavr və ya magistr təhsili almış namizədlərin magistratura və ya doktorantura təhsil səviyyələrində təhsillərini davam etmək məqsədi ilə universitetə müraciətləri dəyərləndirilərkən təhsil aldıqları ali təhsil müəssisələrinin və əldə etdikləri diplomların tanınmasında “xarici ölkələrdə alınmış diplomların tanınması” qaydaları nəzərə alınır.

### 2.2.4. Tələbə dəstək xidmətləri:

SDU-da təhsilalan mərkəzli təhsilin bir parçası kimi təhsilalanların rəylərinə xüsusi diqqət yetirilir. Təqdim edilən təhsil xidmətinin (tədris olunan fənlərin və onların məzmununun faydalılığı, qiymətləndirmə qaydaları, fənni tədris edən müəllimin peşəkar xüsusiyyətləri və s.) keyfiyyətinə dair təhsilalanların rəyləri diqqət mərkəzində saxlanılır. Hər semestrin sonlarına doğru tədris edilən fənlərin keyfiyyətinin müəyyənləşdirilməsinə dair sorğu keçirilir. Həmçinin semestrin sonunda təşkil olunan imtahan prosesi ilə bağlı təhsilalanların rəylərini öyrənmək məqsədilə sorğular təşkil olunur. Əldə edilən nəticələr növbəti mərhələlərdə sözügedən proseslərin təşkilinin təkmilləşdirilməsi məqsədilə istifadə edilir. SDU-da təhsilalanların rəy və təkliflərinin mütəmadi olaraq öyrənilməsi üçün “Təkliflər qutusu”, “Açıq qapı günləri” kimi tətbiqlər də mövcuddur. Bunlarla yanaşı təhsilalanlara müxtəlif istiqamətli dəstək xidmətləri göstərilir. Bu xidmət istiqamətlərini aşağıdakı şəkildə qeyd etmək mümkündür:

- **Tyutorluq xidməti:** Təhsilalanlara təhsil aldıqları müddətdə akademik və digər məsələlərdə tyutorluq xidməti vasitəsilə dəstək göstərilir. Tyutorlar təhsilalanlara universitetdə tətbiq edilən imtahan sistemi, qüvvədə olan qanunvericilik sənədləri, qeydiyyat məsələləri və digər sahələrdə məlumat verir və mentorluq edirlər.
- **Elmi rəhbərlik xidməti:** Magistratura və doktorantura səviyyəsində təhsilalanlar üçün elmi rəhbərlər müəyyənləşdirilir. Elmi rəhbərlər magistrant və ya doktorantların təlim-tədris prosesi, elmi işlərin ərsəyə gətirilməsi kimi mövzularda dəstək göstərirlər. Sözügedən xidmətlər “Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi qaydaları” sənədi əsasında tənzimlənir.
- **Psixoloji xidmət:** SDU-da təhsilalanların emosional və psixoloji vəziyyəti diqqətdə saxlanılmaqla onların akademik və şəxsi inkişafı dəstəklənir. Bu dəstəyi təmin etmək məqsədilə Psixoloji xidmət mərkəzi (ictimai əsaslarla) təşkil olunmuşdur.
- **Bərabər imkanların yaradılması:** SDU-da hər kəsə bərabər təhsil alma imkanları yaratmaq üçün müəyyən tədbirlər görülür. Tələbələrin fərdi ehtiyacları nəzərə alınaraq universitetdə İnkluziv Təhsil Mərkəzi (könüllü əsaslarla) fəaliyyət göstərir. Mərkəz fiziki məhdudiyyətli tələbələri xüsusi təhsil resursları, texnoloji vasitələr əsasında özəl proqramlar və dəstək xidmətləri ilə təmin edir. Sosial-həssas qruplara aid tələbələrə

təhsil haqqı, təqaüd imkanları yaratmaqla onlara tədris prosesində dəstək göstərilir. SDU-da həmçinin multikultural dəyərlərə önəm verilərək fərqli mədəniyyətlərdən olan tələbələr üçün dil kursları, mədəni inteqrasiya proqramları və sosial tədbirlər təşkil olunur.

- **Təcrübə və karyera planlamasına dəstək xidməti:** SDU-da təhsilalanların gələcək karyeralarını uğurlu bir şəkildə qurmalarına müxtəlif yollarla (tanınmış müəssisələrdə təcrübəyə cəlb olunma, mütəxəssislərlə təhsilalanların görüşünün təşkili, karyera planlaşdırılmasına dair tövsiyə xidmətləri və s.) dəstək verilir. Bu dəstəyin təmin olunmasında əsas pay Karyera və məzunlarla iş mərkəzinin üzərinə düşür.
- **Mükəmməllik mərkəzi-** Bu mərkəz təhsilalanların akademik bilik və bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif seminar, təlim və mentorluq proqramları təqdim edir. Mərkəz eyni zamanda təhsilalanların asudə vaxtlarının səmərəli təşkilinə, tələbə klublarının və dərnəklərin fəaliyyətlərinin artırılmasına şərait yaradır, onların sosial bacarıqlarının inkişafına və universitet həyatında aktiv iştiraklarına dəstək verir.

# 3. ELM VƏ TƏDQİQAT

Tədqiqat fəaliyyəti universitetin əsas strateji inkişaf istiqamətlərindən biri kimi qəbul edilmişdir. SDU-da yeniliklərə istiqamətlənmiş, nəticələri ictimai və iqtisadi dəyərə çevrilən, multidisiplinar tədqiqatların aparılması diqqət mərkəzində saxlanılır. Eyni zamanda, tədqiqat və təlim-tədrisin bütövləşdirilməsinə, magistrant və doktorantların daha effektiv şəkildə tədqiqatçılıq fəaliyyətinə cəlb olunmasına, fürsətlərin dəyərləndirilərək strateji cəhətdən faydalı beynəlxalq əməkdaşlıqların qurulmasına və inkişaf etdirilməsinə önəm verilir. Elmi tədqiqat işləri planlaşdırılarkən əmək bazarının (sənaye-universitet, məktəb-universitet və s.) ehtiyacları diqqətdə saxlanılır. Tədqiqat işlərinin keyfiyyətliliyinə, akademik dürüstlüyün təmin olunmasına nəzarəti həyata keçirmək üçün müəyyən qaydalar (plagiatla mübarizə, və s.) mövcuddur.  Tədqiqat fəaliyyətinin yaxşılaşdırılması istiqamətində SDU-da müəyyən motivasiya xarakterli tədbirlər (mükafatlandırma sistemi və s.) görülür**.** Bu qaydalar SDU Elmi Şurasının qərarı ilə təsdiq edilmiş “Elmi məqalələrə görə mükafalandırma mexanizmi” sənədinə əsasən həyata keçirilir.

# 4. BEYNƏMİLƏLLƏŞMƏ

SDU-da beynəmiləlləşmə, beynəlxalq əlaqələrin genişləndirilməsi əsas strateji inkişaf istiqamətlərindən biri kimi qəbul edilir. Bu sahədə SDU-nun “Beynəmiləlləşmə siyasəti” mühüm rol oynayır. Təhsilalanların və akademik heyətin mübadilə proqramları vasitəsilə mobilliyinin təmin olunması, əcnəbi tələbələrin və mütəxəssislərin cəlbi, beynəlxalq elmi-tədqiqat və tədris ilə bağlı layihələrdə, qrant müsabiqələrində və digər beynəlxalq tədbirlərdə davamlı iştirakın təmini, o cümlədən, beynəlxalq reytinqlərdə (QS, THE və s.) iştirak etmək və universitetin mövqeyini möhkəmləndirmək universitetin beynəmiləlləşmə siyasətinin mühüm hissələridir.

# 5. RESURSLARIN İDARƏ OLUNMASI

## 5.1. Maddi resursların idarə olunması

### 5.1.1. İnformasiyanın idarə olunması (ictimaiyyəti məlumatlandırma)

SDU-da fəaliyyətlərin effektiv icrası üçün müvafiq informasiyaların əldə olunmasına, analiz edilməsinə və istifadəsinə şərait yaradılır. Daxili və xarici maraqlı tərəflərin məlumatlandırılması prosesində məlumatların reallığı, tamlığı, operativliyi və

əlçatanlığı prinsipləri rəhbər tutulur. Daxili məlumatların ötürülməsi zamanı əsas vasitə kimi korporativ maillərdən istifadə edilir.

SDU-nun rəsmi internet saytında təşkilati struktur, idarəetmə, Strateji inkişaf planı, struktur bölmələrin fəaliyyətləri, təlim-tədris və tədqiqat fəaliyyəti, keçirilən müxtəlif məzmunlu tədbirlər və s. haqqında məlumatların yerləşdirilməsi universitetin ictimaiyyəti məlumatlandırmaq üçün apardığı keyfiyyət siyasətinin bir parçasıdır. Bu mənada universitetin rəsmi internet səhifəsi, eləcə də, sosial media hesabları ictimaiyyəti (daxili və xarici maraqlı tərəfləri) məlumatlandırmada vasitə rolunu oynayır.

### 5.1.2 Digər maddi resursların idarə olunması

SDU-da təhsilalan və təhsilverənlərin, eləcə də akademik və inzibati heyətin universitetin mövcud imkanlarından (maddi-texniki bazasından- auditoriya, meydança, kitabxana xidmətləri-dərs vəsaitləri və digər tədris resursları və s.) istifadə etmələri üçün şərait yaradılır. Bu imkanların genişləndirilməsi isə əsas prioritet məsələlərdən biri kimi nəzərdə saxlanılır.

## 5.2. İnsan resurslarının idarə olunması

SDU-da insan resursları kimi professor-müəllim və inzibati heyətinin səriştə və bacarıqlarını inkişaf etdirmək əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. Bu inkişaf akademik və inzibati heyəti müxtəlif peşəkar inkişaf təlimlərinə cəlb etməkdə özünü göstərir. Bundan əlavə, ATM-də rəqabətli seçim əsasında akademik və inzibati heyətin işə qəbulu həyata keçirilir. Namizədlərin işə qəbulu "SDU-da İşə qəbul qaydaları" əsasında həyata keçirilir. SDU-da namizədlərin işə qəbulu və vəzifə yüksəlişləri ilə bağlı qərarlar şəffaflıq, obyektivlik, məlumatlılıq, hüquq bərabərliyinin təmini kimi prinsipləri rəhbər tutularaq kollegial formada reallaşdırılır.

# 6. MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

SDU-da daxili (təqdim edilən xidmətlərin keyfiyyətliliyini təmin etmək üçün mütəmadi monitorinqlərin aparılmasına) və xarici qiymətləndirmə prosesləri əhəmiyyət kəsb edir.

SDU-da PİNT (Planla, icra/tətbiq et, nəzarət et və tədbir gör/ PDCA) yanaşmasına əsaslanaraq həyata keçirilən fəaliyyətlərin davamlı təkmilləşdirilməsinə çalışılır.

**Daxili qiymətləndirmə** zamanı PİNT prinsipi rəhbər tutularaq müxtəlif məqsədlər üçün hazırlanmış planlara uyğun hesabatlar əsas götürülür və nəticələrə uyğun müəyyən tədbirlər görülür. Ali təhsilin müxtəlif səviyyələrində təqdim edilən proqramlar daxili və xarici maraqlı tərəflərin fikirləri də nəzərə alınaraq müəyyən vaxtlarda (məzmun və s. baxımından) nəzərdən keçirilir.

**Xarici qiymətləndirmə:** SDU xarici qiymətləndirmənin əsas forması kimi akkreditasiya proseslərlərinə qoşulur. Ölkə daxilində institusional və proqram akkreditasiyası üçün müvafiq sahə üzrə fəaliyyət göstərən quruma (TKTA), proqram akkreditasiyası üçün müxtəlif beynəlxalq qurumlara (ASİİN və s.) müraciət edilir.